Sitarə son dərəcə həyata aydın baxışı, bütün münasibətlərdə təmənnasızlığı ilə seçilən bir qızdır. Hətta sevgidə ənənəvi qaydaları belə öz təbiiliyi ilə dağıtmaq iqtidarındadır. Onun düşüncəsinə görə sevginin azadlığı hər kəsə öz düşüncəsini sərbəst ifadə etmək, öz hisslərini etiraf üçün əsas qaynaq olmalıdır. Hər kəs sevgisinə güvənərək özünü hisslərində, duyğularında haqlı bilməlidir. Bu ən azı, hər kəsin insani haqqıdır.

Ulduz Qasım özünün ədəbi qəhrəmanı Sitarəni sevginin ən dərin burulğanlarında belə təbiilikdən çıxarmır, onun mənəvi mühitini özünün saflığında göstərə bilir. Sitarə də, demək olar ki, əsər boyu heç yerdə əndazəni aşmır; çünki onun hissləri şəhvani istəklərdən qaynaqlanmır. Onun düşüncə mühitində, sevdiyi şəxs varlığının boşluğunu doldura biləcək, kimliyini bütövləşdirəcək şəxsiyyət obrazıdır. Təsadüfi deyil ki, Sitarə sevdiyi şəxslə hər bir görüşünü dəqiqəsinə qədər, saatına qədər dəqiqliklə izləyir.

Sitarənin varlığına hakim olaraq qəbul etdiyi müğənni obrazı Sitarənin özü qədər dəlicəsinə sevən aşiq təsiri bağışlamır. Amma yüksək əxlaqı, ləyaqətli hərəkələri ilə, ən başlıcası, bir şəxsiyyət kimi Sitarənin sevgi hisslərindən sui-istifadə etməmək üçün mənəvi üstünlüyünü qorumaq gücünə görə fəqlənən simadır. Çünki onların yaşadıqları mühitdə əslində belə si çox azdır. Bəlkə də heç yoxdur. Doğrudur, Sitarə də o fikirdə deyil ki, cəmiyyət yalnız onun sevdiyi şəxsdən ibarətdir. Yox, Sitarə real düşünmək gücünü hələ itirməyib. Onun qənaətlərinə görə ruhən bağlandığı, qəlbən özünü təslim etdiyi və ən başlıcası, yazısına ədəbi qəhrəman seçdiyi şəxs həqiqətən çoxlarına bənzəmir. Sitarə hiss edir ki, onun qəhrəmanı ucuz hisslərin arxasınca qaçan deyil, hətta əsərin ayrı-ayrı məqamlarında belə, üstəlik, lap elə münasibət başlanğıcında belə Sitarə bütün varlığı ilə ona inanmışdı, ona bağlanmışdı, hətta Sitarə o dərəcədə bu gənc müğənniyə ilk münasibətdən inam, bağlılıq nümayiş etdirir ki, əgər o istəsəydi, Sitarə asanlıqla ona təslim olardı. Lap kəbinsiz, nikahsız onun arvadı olardı, sənədsiz, sübutsuz uşaq da doğa bilərdi. Doğrudur, hələlik bunlar baş vermir. Amma Sitarənin inam mühiti bunun üçün əsas verir.

Görünür, gənc müğənninin mənəvi təbiətindəki bütövlük, ləyaqət ucalığı elə ona görə Sitarənin diqqətini cəlb edir ki, Sitarənin elə ilk görüşdəncə bağlandığı bu şəxs qətiyyən sevgi hisslərinin məstliyində olan Sitarənin zəif görünə bilən cəhətlərindən istifadə ilə mənafe güdmür. Halbuki, sevgi romanının ilk səhifələrindəncə, biz Sitarəni həmin gənc müğənniyə sonuncu hisslərinə qədər tabe olunmuş kimi görürük.

Sevgi hissləri Sitarənin varlığında musiqi serenası kimi artıq öz nəğmələrini oxumaqdadır: *"Nə isə yadımdan çıxıb qalmışdı. Zəng elədim. Həmin vaxtda görüşməliydik. Məndən tez gəlmişdi. 6-ya 13 dəqiqə qalmış. Söhbətimiz 1 saat 27 dəqiqə olmuşdu. Bu dəfə özündən danışdı. Uğursuz məhəbbətindən. Onsuz da, onu görən kimi elə birinci dəfədən hiss eləmişdim ki, nə isə olub onun həyatında, ürəyimə dammışdı elə bil. Onun bu qədər kədər, dərd çəkməsini istəmirdim. İstəyirdim bu adi, mehriban oğlan heç nəyin, heç kimin fikrini eləməsin. Onu fikirlərin əlindən almaq, ona kömək eləmək istəyirdim. Amma heç bilmirdim "məni sevən" gözəl oğlanların haqqında niyə bircə dəfə də fikirləşməmişəm. Onların necə olmağının - dərdlimi, kədərlimi olmağının fərqi olmayıb mənim üçün".* Məlumdur ki, hər hansı bir şəxs digərini öz varlığına tamamilə qəbul etmirsə, onun nə vaxtını hesablayır, nə də kimliyi haqqında qədərindən artıq düşünür. Amma artıq ilk gündən Sitarə müğənninin onunla görüşə gələn vaxtını dəqiqəsinə qədər hesablayır. Bu da onu göstərir ki, artıq Sitarənin varlığında bütün hissləri ilə sevən bir gənc saat əqrəblərinə çevrilib, onun mənəvi dünyasının hərəkət sisteminin istiqamətini müəyyən etməkdədir.

Hətta Sitarə sevdiyi gəncin həyatında kim olacağını hələ aydın bilmir. Amma hər halda onun fikrini çəkir. Hətta cüzi fikirli olsa belə, qayğılı görünsə belə, onun əvəzindən mənəvi yük daşıyır. Çünki istəmir ki, artıq onun varlığına daxil olmuş şəxs kədərli olsun, qayğılı olsun. Həmin bu gəncdən əvvəl onu sevənlərin kimliyi ilə müqayisədə artıq münasibət fərqini özü yaxşı görür.

Əlbəttə, buraya qədər Sitarəni sevənlər olub. Əgər belə demək mümkünsə, Sitarəni ürəkdən istəyənlər olub. Amma Sitarə onların heç birini özünün mənəvi sərhədlərinə yaxın buraxmayıb, onlarla heç vaxt isti söhbət etməyib, çünki buna onun daxili-mənəvi tələbatı olmayıb.

# 5. SEVGİ İŞIĞINDA

Sitarənin həyatı həm də ictimai həyatdır. O özü kimi jurnalis rəfiqələrinin gözləri qarşısında cərəyan edən hadisələrin iştirakçısıdır. Təbiət etibarı ilə özünə nəzarət gücü olan Sitarəyə rəfiqələri qibtə edirlər. Çünki Sitarənin rəfiqələrinin ideal oğlanlar hesab etdikləri *"aşiqləri"* Sitarə heç gözünün ucu ilə də görmür. Amma orası da var ki, rəfiqələri onu qınayırlar belə gözəl oğlanlara yox dediyinə görə.

Vəziyyət isə sürətlə dəyişir. Sitarə birdən-birə adidən adi olan bir oğlanı heç özü də hiss etmədən hansı səbəbdənsə bütün varlığı ilə sevməli olur. Hələ Sitarənin özündən soruşanda onu sevib-sevmədiyini bilmir, bəlkə heç bu suala aydın cavab da verə bilməz. O artıq özü ilə mübarizədədir. Özünün düşdüyü vəziyyətin sanki çıxılmazlığı içərisində qalıb. Hətta Allaha yalvarır ki, ona bu vəziyyətdən çıxmaq üçün güc versin, qüvvət versin. Lap elə ən azı dil gücü versin. Qoy o əsiri olduğu oğlanın qarşısında hansı hissləri yaşadığını etiraf edə bilsin.

Sevginin çox maraqlı, hətta orijinal tərəfləri Sitarənin obrazında üzə çıxır. Sitarə sevdiyi oğlanın özünə qədərki sevgi macərasını artıq öyrənməkdədir. O, artıq başa düşüb ki, bu oğlan hansısa qızı sevib, ona ruhən bağlı olub, onu qəlbinin bütün dərinliklərinə qədər varlığına yığıb. Amma təəssüf ki, bu qız onun sevgisini qiymətləndirə bilməyib.

Sitarə artıq həmin qızın kimliyi haqqında düşünür. Amma özünü ona rəqib kimi görmür. Əgər o qızı tapsaydı, ona yalvarardı ki, sən belə bir sevgiyə layiq olan oğlanın iztirablarına son qoy, onunla barış, onu sev. Əsərdə bu hisslər Ulduz Qasımın qələmi ilə bütün həssaslığında üzə çıxır: *"Bir də tanımadığım, görmədiyim o qızı düşünürdüm. Nifrət eləyə bilmirdim ona. Axı onu sevmişdi bu oğlan. Bilmirdim, indi bəlkə də mənim gözümə, üzümə elə beləcə baxanda da onu görür. İstəyirdim bircə dəfə yuxuda görüm o qızı. Onun ayaqlarına düşüb yalvarım ki, qayıt bunu sev. Axı o sənin üçün bu qədər əzab-əziyyət çəkir. Fikir edir, ağlayır (doğrudan da onun haqqında danışanda ağladı). Əlimdən heç nə də gəlmir. Yəni mən bu qəədr acizəm. Yox, mən aciz deyiləm. Amma o mənim köməyimi qəbul etməsə, sonra istəyirəm yatam. Gözümün önünə atam gəlir. Bax onda istəmirəm səhər açılsın. Birdən dünyada hamıdan çox sevdiyim o atam məni gəlib bu fikirlərimin əlindən alar".* Bəli, müəllif qəhrəmanını hətta hadisələrin ən kəskin çıxılmazlığında belə tənha buraxmır. Onun yaddaşına dikte edir ki, axıra qədər güvənə biləcəyi bir güc mənbəyi var. Bu atasıdır.

Maraqlıdır ki, Sitarənin hisslərinin bu məqamında o, atasının gözünə görünməsinə istəmir. Atasının köməyindən imtina etmək istəyir. Çünki atası onun belə iztirablar çəkməsinə dözə bilməzdi. Atası onu düşdüyü vəziyyətdən çıxarmağa nail olardı.

Böyük sevgidə isə aşiq heç də düşdüyü çıxılmazlıqdan yaxa qurtarmaq istəmir. Necə ki, Füzulinin qəhrəmanı Məcnun Kəbədə atasının istəyinə uyğun olaraq Allaha yalvarmır ki, onu sevgi bəlasından xilas etsin. Allaha yalvarır ki, qoy gözəgörünməz güc onu daha artıq sevgi bəlasına mübtəla eləsin.

Sanki biz bu məqamlarda Sitarənin ruhən böyük Füzuli aşiqinin varisi kimi çıxış etdiyini görürük.

Əsər gündəlik janrında yazıldığı üçün ayrı-ayrı hisslərin axırında tarixlər də verilir. Və sanki hər bir sevgi epizodu qısa fasilələrlə Sitarənin gündəliyində yazıya çevrilir.

Ayrı-ayrı günlərdə Sitarə sonsuz həyəcanla sevdiyi oğlanın yolunu gözləyir. Onu hər an bir işıq kimi arzulayır. Sanki özü qaranlıqdadır. Sitarə evə gələndə, qonşu uşağını görəndə, otaq yoldaşı ilə qarşılaşanda... bütün hallarda öz aləmindədir. Onu mühitin hər hansı bir tərəfi cəlb etmir. Sanki bütün dünya boşdur və yalnız bu dünyada Sitarə var, bir də onun sevdiyi həmin gənc müğənni var. Əlbəttə, həmin gənc də özü haqqında bəzi məlumatları verir. Artıq gördük ki, o uğursuz sevgi taleyindən də danışır. Hətta Sitarə hiss edir ki, onun sevdiyi gənc müğənni uğursuz sevgisindən tam xilas ola bilməyib. Bütün bunlara baxmayaraq, yenə də sevdiyi gənc müğənnini özünün varlığında əsas hakim hesab edir.

Sitarə özü haqqında qədərincə məlumat verir, dünyagörüşünü açıqlayır, hətta sevgiyə münasibəti haqqında danışır. Sevdiyi əsas filmlərin adlarını çəkir. Bu filmlərin sırasında *"Gün keçdi"* filmi də xatırlanır. Zənnimizcə, Sitarə "Gün keçdi" filmini təsadüfi xatırlamır. Onun düşüncəsinə görə, bu əsərin qəhrəmanı - gürcü familyası daşıyan obraz öz sevgisi uğrunda geri qayıtmayacağına əmin olan, ancaq yola cəsarətlə ayaq basan bir obrazdır. Və görünür, Sitarə özünü gürcü familyalı həmin obraza çox bənzədir.

Bütün hallarda Sitarə sevdiyini başqa qızlardan fərqli olaraq səmimi şəkildə etiraf etməkdən də çəkinmir. Məhz bu məqam da oxucu üçün maraqlı psixoloji mühit yaradır: *"... Özümü laqeyid aparmaq istəyirdim. Deyirdim onun xəbəri olmasın bunlardan. Hisslərimdəm, narahatlığımdan, iztirablarımdan. Amma doğrudanmı o bunların heç birini duymurdu? Görmürdü ki, üzünə baxa bilmirəm? Hiss eləmirdi ki, onu görəndə sözüm, səsim dəyişir, həyəcanlanıram, əl-ayağım əsir, dilim topuq vurur, özümə yer tapa bilmirəm? Yəni görmür, hiss eləmir bunları? Bir gün sevgidən danışırdıq, təsəlli verdi mənə.*

*Nə vaxtsa sən də kimisə sevəcəksən... - dedi.*

*- Mənim istədiyimdən nə çıxar - dedim, - bəlkə o heç məni duymadı?*

*-Duyar, duyar, sənin kimi qızı necə duymamaq olar? - dedi. Onda bir kömək lazım olsa can-başla hazıram.*

*Bax indi ürəyim bir az sakitləşirdi. O heç vaxt köməyini əsirgəməz. Elə bilirdim dünyanın xoşbəxtiyəm. Heç kim, heç kəs məndən xoşbəxt ola bilməz. Bu sevincdən adam ölə də bilər".* Demək, sevgi təkcə mənəvi tələbat deyil. Həm də həyatla mübarizədə düşə biləcəyin çətinlikdə kiminsə səninlə birgə həmin çətinliyi dəf edə bilən bir qüvvədir. Və məhz Sitarə öz sevgilisini belə bir qüvvə, güc mənbəyi kimi görür. Yoxsa hələ bir dəfə sevmiş, oxu daşa dəysə də, öz sevgisindən tam ayrılmamış bir gəncə Sitarə nə üçün bu qədər inamla yanaşmalı idi.

Demək, Sitarə sözün həqiqi mənasında özünə ləyaqətli, türklər demiş, *"arkadaş"*, özünə əbədi sadiq bir güc mənbəyi kimi görür onu.

Sitarənin iztirabları artıq başlayıb. Sitarə bütün varlığı ilə titrək bir ömür yaşamaqdadır. Onun mənəvi mühitinin pərakəndəliyi ancaq o vaxt harmoniyaya qayıda bilər ki, dünyanın adidən-adi olan bir müğənni oğlanı onun çətin günlərinin simsarı olsun.

Sitarə iztirablı günlərini yaşamaqda davam edir. Ancaq hələ ki, həmin gənc müğənni onun hisslərinə qədərincə dolğun cavab vermək iqtidarında deyil. Bu o demək deyil ki, həmin gənc laqeyddir, biganədir, sevginin nə demək olduğu sarıdan xəbərsizdir. Yox, o qədərincə həyat hazırlığı olan gəncdir. Əslində elə Sitarəni ona bağlayan da elə onun bu cəhətidir.

Bütün hallarda Sitarə nigarandır, narahatdır. Bu sevginin onu haraya aparacağını, bu yolun nə ilə qurtaracağını da heç düşünmür. Hələ üstəlik özündən çox sevdiyi gəncin taleyi haqqında düşünür. O istəyir ki, həmin gənc həyatını çox firavan, Sitarənin dili ilə desək, xoşbəxt başa vursun. Sitarə narahatdır. Sevdiyi gənc haqqında kimdən nə eşidəcəyinin fərqinə varmadan kimsədən bir xoş təskinedici söz eşitmək istəyi ilə çırpınır: *"İlk və son dəfə onun haqqında ən yaxın adamdan soruşdum. Dedim, elə istəyirəm onu, özünün xəbəri də yoxdur. O da mənə dedi ki, arxayın ol, o sənin istəyinə qarşı çıxmaz. Hamı belə deyir. Hamı mənim kimi ona inanır. İnanırlar ki, o məni xoşbəxt edəcək. Təki belə olsun! Təki..."*. Bir sözlə, bu cümlələr Sitarənin düşüncəsində hakim olan belə bir hökmü diqqətimizə çatdırır ki, sevgi bir bəladır ki, ona düşməyən, onun dibsizliyində çırpınmayan onun nə demək olduğunu çətin anlayar.

Ulduz Qasımın *"Tələbə gündəliyi"* əsərinin sevgi notları ilə köklənmiş sirenası müasir gəncliyə yönəlikdir. Sanki yeni dünyanın qulağına bu sirena pıçıldayır ki, dünyanın xilası saf, sağlam, ülvi sevgidədir.

**20.06.2022**